Respublika.- 2016.- 20 sentyabr.- S. 9.

İsmayıllı: turizm rayonu ölkəyə və dünyaya tanıdır

Ölkəmizin digər bölgələri kimi, İsmayıllı rayonu da zəngin tarixi mədəniyyətə malikdir. Onun çoxlu sayda əsrlərdən soraq verən abidələri, zəngin təbiətli istirahət mərkəzləri var. Son illərdə Azərbaycanın digər bir sıra rayonları kimi İsmayıllı da bu baxımdan yerli və xarici turistlərin diqqətini cəlb edən bölgələr sırasına çıxmışdır. Ölkədə turizmin daha da inkişaf etdirilməsi ilə bağlı qarşıya qoyulan vəzifələr bu rayonda da ardıcıllıqla həyata keçirilir. Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri ***Azər Abbasovun*** *bölgə müxbirimizlə söhbəti də bu barədədir.*

- Turizmin inkişafına dair Dövlət Proqramının başlıca məqsədi Azərbaycan Respublikasında turizm sektorunun dayanıqlı inkişafını təmin etmək və turizmin ölkə iqtisadiyyatının aparıcı sahələrindən birinə çevrilməsinə nail olmaqdan ibarətdir. Rayonda yeni turizm və istirahət mərkəzlərinin tikilib istifadəyə verilməsi, bölgəyə daha çox xarici və yerli turistlərin cəlb olunması, yeni infrastrukturların yaradılması istiqamətində xeyi işlər görülmüşdür. Rayonumuzun əlverişli coğrafi mövqedə olması, iqlim şəraitinin, landşaftının zənginliyi turizm sənayesinin inkişafı üçün zəmin yaradır, həm rayonumuza gələn turistlərin sayının artım dinamikasında, həm turizmin keyfiyyət və kəmiyyət baxımından inkişafında özünü göstərməkdədir.

2016-cı ilin müvafiq dövründə 22200 nəfər xarici və yerli turist rayonumuzda istirahət etmiş, rayonun füsunkar gözəlliyi, təbiəti, flora və faunası ilə, zəngin mədəniyyətə, məişətə, qədim tarixə malik abidələrimizlə, Basqal və Lahıc Tarix və Mədəniyyət qoruqları ərazisində yerləşən xalq sənətkarlıq nümunələri ilə tanış olmuşlar. Xarici turistlərin rayonumuza səfəri zamanı rayonun gəzməli-görməli yerləri, tarix və mədəniyyət abidələri, görkəmli şəxsiyyətləri barədə məlumatlar verilmiş, rayon barədə çap etdirilmiş suvenirlər hədiyyə edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 20 iyul tarixli sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında 2011-ci ilin "Turizm ili" elan edilməsi ilə bağlı tədbirlər planının 26-cı bəndinin icrasına uyğun olaraq Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində İsmayıllı Turizm İnformasiya Mərkəzi yaradılmışdır. Bu mərkəz bölgədə daxili turizmin inkişaf etdirilməsinə, yerli və xarici turistlərin rayona cəlb olunmasına xidmət göstərir. Mərkəz həmçinin informasiya texnologiyaları vasitəsi ilə bölgənin turizm potensialı barədə ətraflı məlumatlar toplayıb göndərir, sorğuları cavablandırır, regiona gələn turistlərin yerləşdirilməsini, gəzintisini təmin edir. Yarandığı vaxtdan indiyə kimi mərkəz turizmlə bağlı xeyli işlər görmüşdür. Bölgənin turizm potensialını əks etdirən flayerlər, buklet-

lər hazırlanaraq çap olunmuşdur. Bukletlərdə tarixi abidələr, tarix diyarşünaslıq muzeyləri, görməli yerlər, regionun mədəni irsi, mətbəxi, ailəvi istirahət mərkəzləri, misgərlik sənətləri əks olunmuşdur. Magistral yol kənarına reklam banerləri vurulmuşdur. Ayrı-ayrı vaxtlarda Göygöl, Şəkiyə, Qəbələyə turlar təşkil olunmuşdur. Regionda fəaliyyət göstərən mehmanxana və mehmanxana tipli obyektlərlə əlaqə qurulmuş, onların təklif etdikləri qiymətlərlə tanış olunmuş və məlumat mübadiləsi aparılmışdır. Mərkəzin fəaliyyətə başladığı vaxtdan elektron səhifəsi yaradılmışdır. Regionun turizm potensialı elektron səhifə üzərində mütəmadi olaraq yayımlanır.

Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təşkil olunan "Ölkəmizi tanıyaq" layihəsinin İsmayıllı rayonuna səfəri zamanı iştirakçıların bacarıqla nümayiş etdirmişdir.

Region üzrə 6 istiqamətdə turist marşurutları hazırlanmışdır. Rayonumuza BƏƏ-dən, Türkmənistandan, Çexiyadan, Rusiyadan, Amerikadan — Los Ancelesdən gəlmiş qonaqlar qarşılanmış, onlara tanışlıq məqsədilə geniş məlumatlar verilmişdir. Regionda kənd turizmi ilə məşğul olan şəxslərlə görüşlərin keçirilməsi, ev sahiblərinə bir sıra tövsiyələr verilməsi və evlər haqqında ümumi məlumat baza toplanması da mərkəzin fəaliyyətində mühüm yer tutur. "Kənd yaşlı turizmin inkişafına dəstək" İctimai birliyinin təşkil etdiyi kiçik sahibkarlığın inkişafı məqsədi ilə kənd qonaq evlərində turist xidmətlərinin göstərilməsi qaydaları üzrə maarifləndirmə işlərinin aparılması və metodik vəsaitin çapı layihəsində İsmayıllı TİM-in işçiləri də yaxından iştirak etmişlər.

2010-cu ildə rayona 25 min turist gəlmişdirsə, bu göstərici 2015-ci ildə 99500 turist, cari ilin birinci yarım ilində 22200 nəfər olmuşdur. Onların rayondakı 23 istirahət mərkəzində yerləşdirilməsi təmin olunmuşdur. Bundan əlavə yüz mindən çox turist gecələmədən istirahətini rayonda keçirmişdir.

Rayonda ixtisaslı kadr hazırlayan İsmayıllı Dövlət Humanitar Texnologiyalar Kollecinin və İsmayıllı Peşə Tədris Mərkəzinin turizm xidmətinin keyfiyyətinin yüksəldilməsində rolu çoxdur. İstirahətini rayonumuzda keçirmək istəyən qonaqlar GotoİsmayIllı vasitəsilə də lazım olan məlumatları əldə edə bilirlər.

İvanovka kəndinin tanıdılmasına köməkliyi olmuşdur. 2015-ci il üçün "Azərbaycanın Milli Mətbəx Paytaxtı" elan edilmiş Qax şəhərində sentyabrın 22-də növbəti tədbir - "Ulu dad" milli mətbəx festivalında iştirak edən mərkəz tərəfindən rayonumuzu təsvir edən bukletlər nümayiş olunmuşdur. Qəbələdə də keçirilən III beynəlxalq Mürəbbə festivalında, Bakı ekspo mərkəzində keçirilən 15-ci Yubley Azərbaycan Beynəlxalq Turizm və Səyahətlər sərgisində, Şəkidə "Türk Dünyasının Mədəniyyət paytaxtı - Şəki 2016" ilinin təntənəli açılış mərasimində və digər beynəlxalq, ölkə əhəmiyyətli tədbirlərdə iştirak edən mərkəz genişmiqyaslı fəaliyyətini

Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin müvafiq sərəncamına əsasən İsmayıllı rayonunun mərkəzində 2016-cı ilin iyun ayının birindən Turizm Bazarı fəaliyyətə başlamışdır. Bazarda regionu əks etdirən əl işləri sərgilənir və satışı həyata keçirilir, hər günün sonunda mədəniyyət müəssisələrinin musiqili proqramı təşkil olunur. Hər həftənin 6-cı günləri mədəniyyət müəssisələrinin rəhbərliyindən ibarət toplantı təşkil olunur və növbəti həftənin proqramı tərtib edilir və Turizm İnformasiya Mərkəzi tərəfindən həmin proqramlar mehmanxana və mehmanxana tipli istirahət mərkəzlərinə göndərilir. Əlavə olaraq növbəti həftənin sonlarında istirahət mərkəzlərində İsmayıllı TİM tərəfindən Azərbaycan filmləri nümayiş olunur. Bu ilin sonunda regionun bələdçi kitabçası hazırlanaraq turistlərin istifadəsinə veriləcəkdir. Bu da qonaqların regionun turizm haqqında məlumatlanmasına kömək olacaqdır. Rayon ərazisində 233 dövlət tarix mədəniyyət abidəsi vardır ki, bunlardan Cavanşir qalası, Qız qalası, Qırx otaq, Buxana kimi abidələrə maraq daha böyükdür. Buynuz kəndindəki dağ şəlaləsi, aşağı Cülyandakı Cülyan şəlaləsi, Talıstan kəndinin şimalında dağlıq ərazidə yerləşən qaranohur gölü rayonun gələcək turizmi üçün əlverişli təbiət gözəllikləridir. Hazırda da bu təbii gözəlliklərə maraq göstərənlər çoxluq təşkil edir. Lakin bu yerlərə getmək üçün yol şəraiti zəifdir.

Qeyd etdiyim və söhbət açmadığım digər bütün məsələlər rayonumuzda turizmin inkişaf yolunda olduğunu aydın göstərir. Bütün bunlar isə gündən-günə inkişaf edib gözəlləşən rayonumuzu ölkəyə, eyni zamanda dünyaya yaxından tanıtmağa yaşıl işıq yandırır.

Söhbəti qələmə aldı:
Rasim AMANOV,
"Respublika".